TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_____ E.M.Ağayev

20 noyabr 2025-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

▼Bu dərman vasitəsinə xüsusi nəzarət olunmalıdır. Bu, yeni təhlükəsizlik məlumatlarını tez müəyyən etməyə imkan verəcəkdir. Tibb işçilərindən hər hansı şübhəli əlavə təsir barədə məlumat vermələri xahiş olunur. Dərman vasitəsinin əlavə təsirləri barədə məlumatların bildirilməsi hissəsinə baxın.

Preparatın istifadəsinə başlamazdan öncə bu içlik vərəqəsini diqqətlə oxuyun, belə ki, onda Sizin üçün mühüm məlumatlar vardır.
Bu içlik vərəqəsini özünüzdə saxlayın. Təkrar oxumağınıza ehtiyac ola bilər.
Əlavə suallarınız varsa, həkiminizə, əczaçınıza, yaxud da tibb bacınıza müraciət edin.
Bu dərman yalnız Sizə təyin olunub. Onu başqa insanlara verməyin. Onların xəstəlik əlamətləri Sizinki ilə eyni olsa da, dərman onlara zərər verə bilər.
Əlavə təsirlərdən hər hansı biri meydana çıxarsa, həkiminizə, əczaçınıza və ya tibb bacınıza müraciət edin. Bunlar, bu içlik vərəqədə qeyd olunmamış hər hansı digər potensial əlavə təsirlər də ola bilər. "Əlavə təsirləri" bölməsinə baxın.

OZEMPİK® 0,25 mq; 0,5 mq/doza dərialtı inyeksiya üçün məhlul (hazır doldurulmuş şpris qələmdə)
OZEMPIC®

Beynəlxalq patentləşdirilməmiş adı: Semaglutid

Tərkibi
Təsiredici maddə: 1 ml məhlulun tərkibində 1,34 mq semaqlutid vardır. Bir hazır doldurulmuş qələmin içərisində 1,5 ml məhlulda 2 mq semaqlutid vardır.
Köməkçi maddələr: dinatrium fosfat dihidrat, propilenqlikol, fenol, inyeksiya üçün su, natrium hidroksid, xlorid turşusu (pH -ın tənzimlənməsi üçün).

Təsviri
Ozempik® hazır doldurulmuş qələmdə şəffaf, rəngsiz və ya demək olar ki, rəngsiz inyeksiya üçün məhluldur.

Farmakoterapevtik qrupu
Diabetin müalicəsində istifadə edilən dərman vasitələri. Qlükaqona bənzər peptid-1 (QBP-1) analoqları.
ATC kodu: A10BJ06.

Farmakoloji xüsusiyyətləri
QBP-1 qlükozanın səviyyəsinin və iştahanın tənzimlənməsinə, habelə ürək-damar sisteminə və böyrəklərə çoxsaylı çoxsaylı təsir göstərən fizioloji bir hormondur. Qlükozanın səviyyəsinə və iştahaya təsir mədəaltı vəzidə və beyində yerləşən QBP-1 reseptorlarının spesifik vasitəçiliyi ilə həyata keçirilir.

İstifadəsinə göstərişlər

Ozempik®-in tərkibində təsiredici maddə olan semaqlutid vardır. Preparat orqanizmdə şəkərin səviyyəsi yalnız həddən artıq yüksək olduqda onu aşağı salmağa və Tip 2 şəkərli diabeti (T2ŞD) olan pasiyentlərdə ürək xəstəliklərinin qarşısını almağa kömək edir. Həmçinin fərqli mexanizmlə Ozempik®, Tip 2 ŞD olan pasiyentlərdə böyrək funksiyasının pisləşməsini də ləngidir..

Ozempik® tip 2 şəkərli diabeti olan yetkinlərdə (18 yaş və yuxarı) fiziki məşq və pəhriz qanda şəkərin səviyyəsini aşağı salmaq üçün kifayət etmədikdə istifadə olunur:

- monoterapiyada – metformin (digər antidiabetik preparat) qəbul edə bilmirsinizsə
- yaxud digər antidiabetik dərmanlarla birlikdə – həmin dərmanlar qanınızda şəkərin səviyyəsini tənzimləmək üçün kifayət etmirsə.

Burda peroral antidiabetik dərmanlar və ya insulin aid ola bilər.

Həkiminizin, əczaçınızın və ya tibb bacınızın Sizə tövsiyə etdiyi pəhriz və fiziki məşq planını davam etdirməyiniz vacibdir.

Əks göstərişlər

Aşağıdakı hallarda Ozempik®-dən istifadə etməyin:

əgər Sizdə semaqlutidə və ya bu preparatın tərkibində olan digər maddələrə (bax: "Tərkibi") qarşı allergiyanız varsa.

Xüsusi göstərişlər və ehtiyat tədbirləri

Bu dərmanın istifadəsinə başlamazdan öncə həkiminizlə, əczaçınızla və ya tibb bacınızla məsləhətləşin.

Bu dərman insulin deyildir və aşağıdakı hallarda istifadə edilməməlidir:

- Sizdə 1-ci tip şəkərli diabet varsa – yəni, Sizin bədəniniz insulin ifraz etmədiyi halda
- Sizdə diabetik ketoasidoz varsa – yəni, qanda şəkərin səviyyəsinin yüksək olması, tənəffüsün çətinləşməsi, çaşqınlıq, həddən artıq susuzluq hissi, nəfəsdən şirin qoxu gəlməsi və ya ağızda şirin və ya metal dadı kimi əlamətlərlə müşayiət olunan diabetin fəsadı.

Ozempik® insulin deyildir və bu səbəbdən də, insulinin əvəzinə istifadə edilməməlidir.

Əgər cərrahiyyə əməliyyatına hazırlaşırsınızsa və əməliyyatın anesteziya ilə aparılacağını bilirsinizsə, zəhmət olmasa, Ozempik® preparatı qəbul etdiyinizi həkiminizə bildirin.

Həzm sisteminə təsirləri

Bu dərmanla müalicə müddəti ərzində Sizdə ürəkbulanma və ya qusma, yaxud ishal ola bilər. Bu əlavə təsirlər dehidratasiyaya (maye itkisinə) səbəb ola bilər. Dehidratasiyanın qarşısını almaq üçün xeyli miqdarda maye qəbul etməyiniz vacibdir. Əgər böyrək problemləriniz varsa, bu, xüsusilə vacibdir. Hər hansı sualınız və ya narahatçılığınız varsa, həkiminizlə məsləhətləşin.

Kəskin pankreatit səbəbindən yarana bilən ağır və davamlı mədə ağrısı

Əgər Sizdə qarın nahiyəsində (mədə nahiyəsi) ciddi və davamlı ağrılar varsa – dərhal həkimə müraciət edin, bu, kəskin pankreatitin (mədəaltı vəzin iltihabının) əlaməti ola bilər.

Hipoqlikemiya

Bu preparatı sulfonil sidik cövhəri preparatları və ya insulin ilə birlikdə istifadə edilməsi qanda şəkərin səviyyəsinin aşağı düşməsi (hipoqlikemiya) riskini artıra bilər. Qanda şəkərin səviyyəsinin aşağı düşməsinin əlamətləri üçün "Əlavə təsirləri" bölməsinə baxın . Həkiminiz qanınızda şəkərin səviyyəsini yoxlamağınızı xahiş edə bilər. Bu, qanda şəkərin səviyyəsinin aşağı düşməsi riskini azaltmaq üçün sulfonil sidik cövhəri preparatının və ya insulinin dozasını dəyişməyin lazım olub-olmaması barədə qərar qəbul etməkdə həkiminizə kömək edəcəkdir.

Diabetik göz xəstəliyi (retinopatiya)

Əgər Sizdə diabetik göz xəstəliyi varsa və Siz insulin qəbul edirsinizsə, bu dərman Sizin görmə qabiliyyətinizin pisləşməsinə səbəb ola bilər və bu müalicə tələb edə bilər. Diabetik göz xəstəliyiniz varsa, yaxud bu dərmanı qəbul etdiyiniz müddət ərzində gözlərinizdə problem hiss edirsinizsə, bu barədə həkiminizi məlumatlandırın.

Pediatriyada istifadəsi

Uşaqlarda və 18 yaşdan kiçik yeniyetmələrdə bu preparatın istifadəsi tövsiyə olunmur, belə ki, bu yaş qruplarında dərmanın təhlükəsizliyi və effektivliyi müəyyən olunmayıb.

Tərkibində olan natrium barədə məlumat

Bu dərmanın tərkibində hər dozaya 1 mmol-dan az olmaqla (23 mq) natrium vardır, yəni preparatın tərkibində əhəmiyyətli miqdarda "natrium yoxdur".

Digər dərman vasitələri ilə qarşılıqlı təsiri
Əgər hər hansı digər dərmanları, o cümlədən bitki tərkibli dərmanları, yaxud reseptsiz aldığınız dərmanları istifadə edirsinizsə, yaxud təzəlikcə qəbul etmişsinizsə və ya etmiş ola bilərsinizsə, həkiminiz, əczaçınız və ya tibb bacınızla məsləhətləşin.
Xüsusən, tərkibində aşağıdakılardan hər hansı biri olan dərmanlardan istifadə edirsinizsə, həkiminiz, əczaçınız və ya tibb bacınızla məsləhətləşin:

- Varfarin və ya qanın laxtalanmasını azaltmaq üçün peroral yolla qəbul edilən digər oxşar dərmanlar (peroral antikoaqulyantlar). Qanınızın laxtalanma qabiliyyətini müəyyənləşdirmək üçün tez-tez qan analizləri tələb oluna bilər. Asenokumarol və semaqlutidin eyni vaxtda istifadəsi zamanı INR-in (beynəlxalq normallaşdırılmış nisbət) azalması halları haqqında məlumat verilmişdir.
- Əgər siz insulin istifadə edirsinizsə, həkiminiz insulinin dozasını necə azaltmaq barədə sizə məlumat verəcək, eləcə də hiperqlikemiya (qanda şəkərin səviyyəsinin yüksəlməsi) və diabetik ketoasidoz (insulin çatışmazlığı səbəbindən orqanizmin qlükozanı parçalaya bilməməsi nəticəsində yaranan şəkərli diabetin ağırlaşması) kimi halların baş verməməsi üçün qanda şəkərin səviyyəsinə daha tez-tez nəzarət etməyinizi tövsiyə edəcəkdir.

Hamiləlik və laktasiya dövründə istifadəsi
Əgər hamiləsinizsə və ya uşaq əmizdirirsinizsə, hamilə ola biləcəyinizi düşünürsünüzsə və ya hamiləliyi planlaşdırırsınızsa, bu dərmanı qəbul etməzdən əvvəl həkiminizlə məsləhətləşin.
Bu preparat hamiləlik zamanı istifadə olunmamalıdır, belə ki onun dölə təsiri məlum deyil. Bu səbəbdən də, bu preparatdan istifadə zamanı kontrasepsiya vasitələrindən istifadə etmək tövsiyə olunur. Əgər hamilə qalmaq istəyirsinizsə, iki ay əvvəldən bu preparatın qəbulunu dayandırmalısınız. Bu dərmandan istifadə etdiyiniz müddətdə hamilə qalmısınızsa, dərhal həkiminizlə məsləhətləşin, belə ki, müalicənizdə dəyişiklik tələb olunacaq.
Uşaq əmizdirirsinizsə, bu preparatdan istifadə etməyin, çünki dərmanın ana südünə keçib-keçmədiyi məlum deyil.

Nəqliyyat vasitəsitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri
Əgər bu preparatla birlikdə sulfonil sidik cövhəri preparatları və ya insulin istifadə edirsinizsə, qanınızda şəkərin səviyyəsinin aşağı düşməsi (hipoqlikemiya) baş verə bilər, bu isə sizin diqqətinizi toplamaq qabiliyyətinizin azalmasına gətirib çıxara bilər. Sizdə qanda şəkərin səviyyəsinin azalmasının hər hansı bir əlaməti varsa, nəqliyyat vasitələrini idarə etməkdən və avadanlıqlardan istifadə etməkdən çəkinin. Qanda şəkərin səviyyəsinin aşağı düşməsinin yüksək riski barədə məlumat almaq üçün *"Xüsusi göstərişlər və ehtiyat tədbirlər"* bölməsinə, qanda şəkərin səviyyəsinin aşağı düşməsinin əlamətləri barədə məlumat almaq üçün "Əlavə təsirləri" bölməsinə baxın. Daha ətraflı məlumat almaq üçün həkiminizə müraciət edin.

İstifadə qaydası və dozası
Bu dərman vasitəsini həmişə yalnız həkimin təyin etdiyi qaydada istifadə edin. İstifadə qaydasından əmin olmadıqda həkiminiz, əczaçınız və ya tibb bacınız ilə məsləhətləşin.
İstifadə qaydası
Başlanğıc doza dörd həftə ərzində həftədə bir dəfə 0,25 mq-dır.
Dörd həftədən sonra həkiminiz dozanı həftədə bir dəfə 0,5 mq-dək artıracaqdır.
Əgər həftədə bir dəfə 0,5 mq dozanın qəbulu qanınızda şəkərin səviyyəsinə nəzarət üçün kifayət etməzsə, həkiminiz dozanızı həftədə bir dəfə 1 mq-dək artıra bilər.
Həkiminiz tövsiyə etmədiyi təqdirdə dozanızı dəyişdirməyin.
Ozempik® -in yeridilməsi
Ozempik® dərialtı inyeksiya üçün nəzərdə tutulub (dərialtı inyeksiya). Preparatı damara və ya əzələyə yeritməyin.
İnyeksiyanı yeritmək üçün ən münasib yerlər ombaların ön tərəfi, bazu və ya belin ön tərəfi (qarın nahiyəsi).
Qələmdən ilk dəfə istifadə etməzdən öncə, həkiminiz və ya tibb bacınız hazır doldurulmuş qələmdən istifadə qaydalarının Sizə göstərəcəkdir. Qələmin istifadəsi üzrə daha ətraflı təlimatlar bu içlik vərəqəsinin arxa tərəfində verilib.
Ozempik®-dən nə zaman istifadə edilir?
Siz bu dərmandan həftədə bir dəfə, mümkün qədər, hər həftə eyni gündə istifadə etməlisiniz.

Preparatı günün istənilən vaxtı – qida qəbulundan asılı olmayaraq yeridə bilərsiniz.
Dərmanı həftədə yalnız bir dəfə yeritməyi unutmamağınız üçün, həftənin inyeksiya üçün seçilmiş gününü (məsələn, Çərşənbə) qutunun üzərində qeyd etməyiniz və hər dəfə inyeksiya etdikdə tarixi qutunun üzərinə yazmağınız tövsiyə olunur.
Zərurət olduqda, həftəlik inyeksiya gününüzü dəyişə bilərsiniz, bu şərtlə ki, sonuncu inyeksiyadan ən azı 3 gün keçmiş olsun. Yeni inyeksiya gününü seçdikdən sonra, preparatı həftədə bir dəfə yeritməyə davam edin.
Əgər Ozempik® istifadə etməyi unutmuşsunuzsa
Əgər dozanı yeritməyi unutmuşsunuzsa və:
Ozempik®-dən istifadə etməli olduğunuz gündən 5 gün və ya daha az müddət keçibsə , xatırladığınız zaman dərmanı yeridin. Daha sonra növbəti dozanı qrafik üzrə həftənin təyin edilmiş günündə yeridin.
Ozempik®-dən istifadə etməli olduğunuz gündən 5 gündən artıq keçibsə, unudulmuş dozanı buraxın. Daha sonra növbəti dozanı qrafik üzrə həftənin təyin edilmiş günündə yeridin.
Unudulmuş dozanı kompensasiya etmək üçün ikiqat dozanı qəbul etməyin.
Ozempik® -dən istifadəni dayandırırsınızsa
Həkiminizlə məsləhətləşmədən bu dərmanın istifadəsini dayandırmayın. Əgər dərmanın qəbulunu dayandırsanız, qanınızda şəkərin səviyyəsi yüksələ bilər.
Bu dərmanın istifadəsi ilə bağlı əlavə suallarınız varsa, həkiminizə, əczaçınıza və ya tibb bacınıza müraciət edin.

Əlavə təsirləri
Bütün dərman preparatları kimi, bu dərman da əlavə təsirlərə malik ola bilər, lakin bu, hər kəsdə özünü göstərmir.
Ciddi əlavə təsirlər
Geniş yayılmış əlavə təsirlər: 10 -da 1-dək hallarda
- Diabetik göz xəstəliyinin (retinopatiya) ağırlaşması – əgər bu dərmanla müalicə zamanı göz problemləriniz, məsələn, görmə qabiliyyətinizdə dəyişikliklər varsa, həkiminizi bu barədə məlumatlandırmalısınız.

Bəzən rast gələn əlavə təsirlər: 100-də 1-dək hallarda
- mədəaltı vəzinin iltihabı (kəskin pankreatit), qarın və bel nahiyələrində keçib getməyən güclü ağrıya səbəb ola bilər. Bu cür simptomlar meydana çıxdıqda dərhal həkimə müraciət edin.

Nadir əlavə təsirlər: 1000-də 1-dək hallarda
- ciddi allergik reaksiyalar (anafilaktik reaksiyalar, angioödem). Əgər Sizdə nəfəs almanın çətinləşməsi, üzün, dodaqların, dilin və/və ya boğazın şişməsi ilə udmanın çətinləşməsi və ürək döyüntülərinin tezləşməsi kimi əlamətlər yaranarsa, dərhal tibbi yardım üçün müraciət etməli və həkiminizi məlumatlandırmalısınız.

Tezliyi məlum deyil (tezliyin mövcud məlumatlara əsasən qiymətləndirilməsi mümkün deyil
- Bağırsaq obstruksiyası. Mədə ağrısı, qarnın köpməsi, qusma və s. kimi əlavə simptomlarla müşayiət olunan qəbizliyin ağır forması.

Digər əlavə təsirlər
Çox geniş yayılmış əlavə təsirlər: 10-da 1-dən çox hallarda
- ürəkbulanma – adətən, bir müddət sonra keçib gedir.
- ishal – adətən, bir müddət sonra keçib gedir.

Geniş yayılmış əlavə təsirlər: 10-da 1-dək hallarda
- qusma
- bu dərman digər antidiabetik preparatlarla birlikdə istifadə edildikdə qanda şəkərin səviyyəsinin aşağı düşməsi (hipoqlikemiya).

Qanda şəkərin səviyyəsinin aşağı düşməsinin xəbərdarlıq əlamətləri qəfil başlaya bilər. Bu əlamətlərə aşağıdakılar aid ola bilər: soyuq tər, rəngi avazımış dəri, baş ağrısı, ürək döyüntülərinin tezləşməsi, ürəkbulanma və ya bərk aclıq hissi, görmə qabiliyyətində dəyişikliklər, yuxululuq və ya zəiflik, əsəbilik, həyəcan və ya oriyentasiyanın pozulması, konsentrasiyada çətinlik və ya titrəmə.
Həkiminiz qanda şəkərin səviyyəsinin aşağı olmasını necə müalicə etmək və bu cür xəbərdaredici əlamətlər yarandıqda nə etmək lazım olduğu barədə Sizə məlumat verəcəkdir.
Bu dərmanla eyni zamanda sulfonil sidik cövhəri preparatları və ya insulin qəbul etdiyiniz təqdirdə, qanda şəkərin səviyyəsinin aşağı düşməsi ehtimalı daha yüksəkdir. Siz bu dərmandan istifadə etməyə başlamazdan

öncə həkiminiz həmin preparatların dozasını azalda bilər.
həzmin pozulması
mədənin selikli qişasının iltihabı (qastrit). Bu əlamət mədə ağrısı, ürəkbulanma və qusma ilə müşayiət olunur.
reflyuks və ya qıcqırma – həmçinin "qastro-ezofageal reflyuks xəstəliyi" (QERX) də adlandırılır

- qarında ağrı
- qarında köp
- qəbizlik
- gəyirmə
- öd daşları
- başgicəllənmə
- yorğunluq
- arıqlama
- iştahanın azalması
- köpmə (meteorizm)
- mədəaltı vəzi fermentlərinin (məsələn, lipazanın və amilazanın) yüksəlməsi.

Geniş yayılmamış əlavə təsirlər: 100-də 1-dək hallarda

- yemək və içkilərin dadının dəyişməsi hissi
- nəbzin tezləşməsi
- inyeksiya yerində reaksiyalar (məs., göyərmə, ağrı, qıcıqlanma, qaşınma və səpgi)
- səpgilər, qaşınma və ya övrə kimi allergik reaksiyalar
- mədənin boşalmasında ləngimə

Əlavə təsirlər barədə məlumatın verilməsi
Əgər Sizdə hər hansı əlavə təsirlər olarsa, həkiminizlə, əczaçınızla və ya tibb bacınızla məsləhətləşin. Bunlar, bu içlik vərəqədə qeyd olunmamış hər hansı digər potensial əlavə təsirlər də ola bilər.

Doza həddinin aşılması
Əgər lazım olduğundan artıq Ozempik® istifadə etmisinizsə, dərhal həkiminizi məlumatlandırın. Sizdə ürəkbulanma kimi əlavə təsirlər ola bilər.

Buraxılış forması
1,5 ml məhlul, əvvəlcədən doldurulmuş şpris-qələmdə. 1 şpris-qələm və 6 ədəd birdəfəlik NovoFine® Plus iynələri, içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.
Hər bir qələmin içərisində 1,5 ml məhluldan 0,25 mq və ya 0,5 mq doza alınır.

Saxlanma şəraiti
Uşaqlar üçün görünməyən və əlçatmaz yerdə saxlayın.
İlk dəfə istifadə etməzdən əvvəl
Soyuducuda saxlayın (2-8°C). Dondurmayın. Soyuducu elementdən uzaqda saxlayın. İşıqdan qoruyun.
İstifadə etdiyiniz müddətdə:
Bu qələmi 30°C-dən aşağı temperaturda və ya soyuducuda (2-8°C) soyuducu elementdən uzaqda 6 həftə saxlaya bilərsiniz. Ozempik®-i dondurmayın və əgər dondurulmuşdursa, istifadə etməyin.
Qələmdən istifadə etmədikdə, işıqdan qorumaq üçün daima qələmin qapağını bağlı saxlayın.
Məhlulun şəffaf, rəngsiz və ya demək olar ki, rəngsiz olmadığını gördüyünüz halda, bu dərmandan istifadə etməyin.
Dərman preparatları çirkab sularına axıdılmamalı və ya məişət tullantıları ilə atılmamalıdır. Artıq lazım olmayan dərman preparatının necə utilizasiya edilməsi barədə əczaçınızdan soruşun. Bu cür tədbirlər ətraf mühiti qorumağa kömək edəcəkdir.

Yararlılıq müddəti
Yararlılıq müddəti qələmin etiketində və karton qutusunun üzərində "Expiry" sözündən sonra qeyd olunub.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etməyin.
Yararlılıq müddətinin bitmə tarixi göstərilən ayın son gününə şamil olunur.

Aptekdən buraxılış şərti

Resept əsasında buraxılır.

Marketinq lisenziyasının sahibi və İstehsalçı
Novo Nordisk A/S Novo Allé
DK-2880 Baqsværd Danimarka

Ozempik®, NovoFine® və NovoTwist® Danimarka, Novo Nordisk A/S şirkətinə aid ticarət nişanlarıdır.
© 2025
Novo Nordisk A/S


Ozempik®
0,25 mq və 0,5 mq/doza
Hazır doldurulmuş qələmdə inyeksiya üçün məhlul
semaqlutid

Bu dərman vasitəsinin qəbulu ilə əlaqədar hər hansı şikayətiniz yaranan zaman aşağıdakı yazılan nömrələrə və ya elektron ünvana müraciət etməyiniz xahiş olunur.
Xocalı Pr.37, Dəmirçi Tower, 6-cı mərtəbə Bakı, AZ1025.
Tefefon:+99412 4047696
IO-ROM-SAFETY@novonordisk.com

Hazır doldurulmuş qələmdə inyeksiya üçün 0,25 mq, 0,5 mq məhlul Ozempik®-dən istifadə qaydası


Hazır doldurulmuş Ozempik® qələmindən istifadə etməzdən əvvəl, **zəhmət olmazsa, bu istifadə təlimatlarını diqqətlə oxuyun.**
Həkiminiz və ya tibb bacınızdan **lazımi təlimat almadan qələmdən istifadə etməyin.**
Qələminizi yoxlamağı **onun 0,25 mq, 0,5 mq Ozempik® olduğundan əmin olmaqla** başlayın, daha sonra qələminizin və iynənin müxtəlif hissələrini öyrənmək üçün aşağıdakı şəkillərə baxın.
Əgər sizin gözləriniz görmürsə və ya zəif görürsünüzsə və qələmin üzərindəki doza hesablayıcısını oxuya bilmirsinizsə, bu qələmdən kömək olmadan istifadə etməyin. Görmə qabiliyyəti yaxşı olan, Ozempik® hazır doldurulmuş qələmdən istifadə qaydalarını bilən bir şəxsin köməyindən istifadə edin.
Sizin qələminiz hazır doldurulmuş dozatorlu qələmdir. Onun içərisində 2 mq semaqlutid vardır və siz 0,5 mq və ya 0,25 mq-lıq dozalar seçə bilərsiniz. Sizin qələminiz uzunluğu 8 mm qədər olan NovoFine® və NovoTwist® birdəfəlik iynələri ilə istifadə üçün nəzərdə tutulub. NovoFine® Plus iynələri qablaşmaya daxil edilib.

Ozempik® hazır doldurulmuş qələm və iynə (nümunə)




1. Qələmin yeni iynə ilə hazırlanması

Qələminizin **adını və rəngli etiketini** yoxlayın ki, onun içərisində Ozempik®-in olduğundan əmin olasınız. Əgər bir neçə növ inyeksiya şəklində olan dərmandan istifadə edirsinizsə, bu, xüsusilə vacibdir. Yanlış dərmandan istifadə sağlamlığınıza ciddi zərər vura bilər.
Qələmin qapağını çıxarın.








A

Qələminizin içərisindəki məhlulun şəffaf və rəngsiz olduğundan əmin olun. Qələmin pəncərəsindən baxın. Əgər məhlul bulanıq və ya rəngli görünürsə, bu qələmdən istifadə etməyin.



B

Təzə iynə götürün Kağız ilgəyi və iynənin böyük qapağını sterilliyə təsir edə bilən zədələnmələrin olub-olmaması baxımından yoxlayın. Hər hansı zədələnmə aşkar etdiyiniz halda, yeni iynədən istifadə edin. Kağız ilgəyi qoparın.	 C
İynəni qələmə birbaşa basıb taxın. Möhkəm sıxılanadək onu burun.	 D
İynənin böyük qapağını çıxarın və saxlayın. O, Sizə inyeksiyadan sonra iynəni qələmdən təhlükəsiz şəkildə çıxarmaq üçün lazım olacaqdır.	 E
İynənin iç qapağını çıxarın və atın. Əgər Siz onu geriyə taxmağa çalışsanız, iynəni təsadüfən özünüzə batıra bilərsiniz. İynənin ucunda məhlulun damcısı görünə bilər. Bu normaldır, lakin əgər Siz yeni qələmdən ilk dəfə istifadə edirsinizsə, məhlulun axınını yoxlamalısınız. "Axının yoxlanması" adlı 2-ci addıma baxın. İnyeksiyanı etməyə hazır olmayanadək **qələminizə yeni iynə taxmayın.**	 F
Hər inyeksiya üçün həmişə yeni iynədən istifadə edin. Bu, gözü tutulmuş iynələrin, çirklənmə, yoluxma və qeyri-dəqiq dozaların riskini azaldır.	
Heç zaman əyilmiş və ya zədələnmiş iynələrdən istifadə etməyin.	
2. Axının yoxlanması	
Hər bir yeni qələmlə ilk inyeksiyadan əvvəl, axını yoxlayın. Əgər qələminizdən artıq istifadə edirsinizsə, "Dozanın seçilməsi" adlı 3-cü addıma keçin. **Doza hesablayıcısı axını yoxlama işarəsini (••—) göstərənədək** dozatoru fırladın.	
Qələmi iynəsi yuxarıya doğru tutun. **Doza düyməsini sıxın** və doza hesablayıcısı 0-a qayıdanadək saxlayın. 0 doza işarətləyici xətt ilə üzbəüz olmalıdır. Məhlulun damcısı iynənin ucunda görünməlidir.	

İynənin ucunda kiçik damcı qala bilər, lakin o, inyeksiya zamanı yeridilməyəcəkdir.
Əgər damcı görünməzsə, "Axının yoxlanması" adlı 2-ci addımı 6 dəfədən çox olmamaq şərtilə təkrarlayın. Bundan sonra da damcı görünməzsə, iynəni dəyişin və "Axının yoxlanması" adlı 2-ci addımı bir daha təkrarlayın.
Əgər damcı yenə də görünməzsə, qələmi atın və yenisini istifadə edin.

⚠ **İnyeksiyanı yeritməzdən əvvəl həmişə əmin olun ki,** iynənin ucunda damcı görünür.
Bu, məhlul axınının normal olduğunu göstərir.
Əgər heç bir damcı görünməzsə, hətta doza hesablayıcısı tərpənsə belə, inyeksiyanı yerinə **yetirməyin. Bu, iynənin gözünün tutulduğunu və ya iynənin zədələndiyini göstərə bilər.**
Hər bir yeni qələmlə ilk inyeksiyanızdan əvvəl axını yoxlamasanız, təyin edilmiş dozanı və Ozempik®in nəzərdə tutulmuş təsirini əldə etməyə bilərsiniz.

3. Dozanın seçilməsi

Dozatoru firladaraq sizə təyin olunmuş dozanı (0,25 mq və ya 0,5 mq) seçin.
Əgər yanlış dozanı seçmisinizsə, dəqiq dozanı seçənədək dozatoru irəliyə və geriyə firlada bilərsiniz.



A

Dozator dozanı dəyişir. Yalnız doza hesablayıcısı və doza işarətləyici xətt 1 doza üçün neçə mq seçildiyini göstərəcəkdir.
Dozator irəliyə, geriyə firlandıqda və ya qalan mq-ı göstərən rəqəmi keçdikdə fərqli səslə çıqqıldayır. Qələmin çıqqıltılarını əsas götürüb saymayın.

⚠ **Bu dərmanı yeritməzdən əvvəl həmişə neçə mq dozasının seçildiyini görmək üçün doza hesablayıcısından və doza işarətləyi xətdən istifadə edin.**
Qələmin çıqqıltılarını əsas götürüb saymayın.
Dəqiq dozanı qəbul edəcəyinizdən əmin olmaq üçün doza hesablayıcısında doza işarətləyici xətt ilə dəqiq üzbəüz olmalıdır.

Qalan məhlulun miqdarı

Nə qədər məhlul qaldığını görmək üçün, doza hesablayıcısından istifadə edin: **doza hesablayıcısı dayanana qədər** dozatoru firladın. Əgər o, 0,5 rəqəmini göstərirsə, qələminizdə **ən azı 0,5 mq** məhlul qalmışdır.
Əgər **doza hesablayıcısı 0,5 mq-dan əvvəl dayanarsa,** demək, tam 0,5 mq-lıq doza üçün qələmdə kifayət qədər məhlul qalmamışdır.




A

⚠ Tam doza üçün qələminizdə kifayət qədər məhlul qalmamışdırsa onu istifadə etməyin. Yeni Ozempik® qələmini istifadə edin.


4. Dozanızın inyeksiya edilməsi

Həkiminiz və ya tibb bacınızın Sizə göstərdiyi üsulla **iynəni dərinizə batırın.**
Əmin olun ki, doza hesablayıcısını görə bilirsiniz. Doza hesablayıcısını barmaqlarınızla bağlamayın. Bu, inyeksiyanın yeridilməsinə mane ola bilər.




A


Doza düyməsini doza hesablayıcısı 0-a qayıdanadək basıb saxlayın. 0 doza işarətləyici xətt ilə üzbəüz olmalıdır.
Siz çıqqıltıları eşidə və ya hiss edə bilərsiniz.



B

Doza hesablayıcısı 0-a qayıtdıqdan sonra **iynəni dərinizdə saxlayın** və **yavaş-yavaş 6-ya qədər sayın.** Bu, tam dozanı qəbul etdiyinizdən əmin olmaq üçündür. Əgər iynəni daha tez çıxarsanız, iynənin ucundan məhlulun axdığını görə bilərsiniz. Bu isə, tam dozanı qəbul etmədiyinizi göstərir.	 C

İynəni dərinizdən çıxarın. Əgər inyeksiya yerində qan görünərsə, pambıq tamponla yüngülcə sıxın. Həmin nahiyəni ovuşdurmayın.



İnyeksiyadan sonra da iynənin ucunda məhlul damcısı görünə bilər. Bu normaldır və sizin dozanıza təsir etmir.

⚠ **Neçə mq inyeksiya etdiyinizi bilmək üçün həmişə doza hesablayıcısını izləyin.** Doza hesablayıcısı 0-ı göstərənə qədər doza düyməsini sıxıb saxlayın.


Gözü tutulmuş və ya zədələnmiş iynənin müəyyənləşdirilməsi
Əgər doza düyməsini fasiləsiz sıxdıqdan sonra doza hesablayıcısında 0 görünmürsə, iynənin gözü tutulmuş və ya iynə zədələnmiş ola bilər.
Bu halda, hətta əgər doza hesablayıcısı təyin etmiş olduğunuz orijinal dozadan hərəkət etsə belə, Siz dərmanı qəbul etmiş **olmayacaqsınız**.

Gözü tutulmuş iynə ilə nə etməli?
"İnyeksiyadan sonra" adlı 5-ci addımda təsvir edilmiş üsulla iynəni dəyişin və "Qələmin yeni iynə ilə hazırlanması" adlı 1-ci addımdan başlayaraq bütün addımları təkrarlayın. Sizə tələb olunan tam dozanı seçdiyinizdən əmin olun.


İnyeksiya zamanı doza hesablayıcısına toxunmayın. Bu, inyeksiyanı dayandıra bilər.

5. İnyeksiyadan sonra


İynəyə və ya onun böyük qapağına dəymədən düz səthin üzərində **iynənin ucunu iynənin böyük qapağına salın**.



İynəni qapağına saldıqdan sonra **ehtiyatla iynənin böyük qapağını tam bağlayın.**
İynəni burub çıxarın və yerli təlimatlara uyğun olaraq onu ehtiyatla atın. İti uclu əşyaların utilizasiyası barədə həkiminizdən, tibb bacınızdan və ya əczaçınızdan məlumat alın.



Hər istifadədən sonra məhlulu işıqdan qorumaq üçün **qələmin qapağını qələmin üzərinə taxın**.



Rahat inyeksiyanı təmin etmək və gözü tutulmuş iynədən istifadənin qarşısını almaq üçün **hər inyeksiyadan sonra həmişə iynəni atın**. Əgər iynənin gözü tutulubsa, Siz **heç bir** dərmanı inyeksiya **etməməlisiniz.**
Qələm boşdursa, onu üzərində iynə olmadan həkiminiz, tibb bacınız, əczaçınız və ya yerli səlahiyyətli orqanların təlimatlandırdığı üsulla atın.

⚠ **Heç zaman iynənin iç qapağını geri iynənin üzərinə taxmağa çalışmayın.** İynəni özünüzə batıra bilərsiniz.

⚠ **Hər inyeksiyadan sonra həmişə iynəni qələminizin üzərindən çıxarın**. Bu, gözü tutulmuş iynələrdən istifadə, çirklənmə, yoluxma, məhlulun axması və qeyri-dəqiq dozaların riskini azaldır.

⚠ **Əlavə vacib məlumat**

Həmişə qələminizi və iynələri başqaları üçün, xüsusilə də, uşaqlar üçün **görünməyən və əlçatmaz yerdə** saxlayın.
Heç zaman qələminizi və ya iynələrinizi başqa insanlarla **bölüşməyin.**
İynələrin batmasına və ya bir-birini infeksiyaya yoluxdurmaya yol verməmək üçün, **istifadə olunmuş iynələr ilə çox ehtiyatla davranın.**

Qələmin saxlanması

Qələminizlə ehtiyatla davranın. Qələmlə kobud rəftar və ya ondan düzgün istifadə etməmə qeyri-dəqiq dozalara səbəb ola bilər. Bu baş verdikdə, Siz dərmanın nəzərdə tutulmuş təsirini əldə etməyə bilərsiniz.

- **Dondurulmuş Ozempik®-i inyeksiya etməyin.** Bu halda, Siz dərmanın nəzərdə tutulmuş təsirini əldə etməyə bilərsiniz.
- **Düz düşən günəş şüalarının təsirinə məruz qalmış Ozempik®-i inyeksiya etməyin.** Bu halda, Siz dərmanın nəzərdə tutulmuş təsirini əldə etməyə bilərsiniz.
- **Qələminizi tozlanmağa və ya çirklənməyə məruz qoymayın və onu mayeyə vurmayın.**
- **Qələminizi yumayın, islatmayın və ya heç nə ilə sürtməyin.** Əgər lazım olarsa, onu yumşaq yuyucu vasitə ilə isladılmış parça ilə təmizləyin.
- **Qələminizi əlinizdən salmayın** və yaxud bərk səthlərə vurmayın. Əgər əlinizdən düşübsə və ya problemin olduğundan şübhələnirsinizsə, inyeksiya etməzdən əvvəl yeni iynə taxın və məhlulun axınını yoxlayın.
- **Qələminizi təkrar doldurmağa çalışmayın.** O, boşaldıqdan sonra, atılmalıdır.
- **Qələminizi təmir etməyə** və ya onu hissələrə ayırmağa çalışmayın.